# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

***Günlərlə, aylarla üzərində işlədiyim, müxtəlif mənbələrdən, KİV məlumatlarından istifadə etdiyim və toplu halında birləşdirdiyim məlumat toplusunun növbəti məqalələrini Sizə təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!***

## AĞAYEV KƏNAN VAHİD OĞLU



Şəhid əsgər Kənan Vahid oğlu Ağayev 9 sentyabr 2002-ci ildə Oğuz şəhərində anadan olmuşdur. Əslən Tərtər rayonunun Çardaqlı kəndindəndir. Birinci Qarabağ müharibəsi zamanı Çardaqlı kəndinin erməni vandalları tərəfindən işğal edilməsindən sonra Kənanın ailəsi məcburi köçkün kimi öz yurdlarından didərgin düşmüş, Oğuz rayonunun Xalxal kəndində məskunlaşmışdır. Kənan əvvəlcə Oğuz rayonunun Xalxal kəndində yerləşən Ağdam rayon 108 saylı köçkün tam orta məktəbində oxumuş, 2019-cu ildə isə Oğuz rayon İntizam Rəhimov adına Qumlaq kənd tam orta məktəbinin 11-ci sinfini bitirmişdir.

Kənan Ağayev 2020-ci ilin oktyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlamışdır. 2022-ci ilin aprel ayında hərbi xidmətini başa vurduqdan sonra Kənan Ağayev bir müddət mülki fəaliyyət göstərmişdir. O, 2023-cü ilin fevral ayından Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kursunda olmuşdur. Kursu müvəffəqiyyətlə bitirən Kənan Ağayev həmin ilin aprel ayından Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu kimi xidmət etmişdir.

Kənan Ağayev 19 sentyabr 2023-cü ildə Qarabağ bölgəsində separatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı Azərbaycan Ordusu tərəfindən başladılan lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocalı istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərərək fərqlənmişdir. Əsgər Kənan Ağayev 20 sentyabr 2023-cü ildə Xocalı istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Qəhrəmanımızın nəşi 21 sentyabr 2023-cü ildə Oğuz rayonunun Ərmənət kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Kənan Ağayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## AĞCABƏYOV TURAL TƏBRİZ OĞLU



Şəhid kiçik çavuş Tural Təbriz oğlu Ağcabəyov 14 sentyabr 1987-ci ildə Xaçmaz rayonunun Manafoba kəndində anadan olmuşdur. Xaçmaz rayon Manafoba kənd ümumi orta məktəbində təhsil almışdır. Məktəbi bitirdikdən sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xaçmaz rayon şöbəsi tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət edirdi. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət mülki fəaliyyət göstərmişdir. Sonra isə Müddətdən Artıq Həqiqi Hərbi Xidmət kurslarına yazılmışdır. Kursları müvəffəqiyyətlə bitirən Tural Ağcabəyov 2016-cı ildə müddətdən artıq həqiqi hərbi xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Tural Ağcabəyov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Ağdamın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, fərqlənmişdir.

Vətən müharibəsi bitdikdən sonra Tural Ağcabəyov cənab Prezident İlham Əliyev tərəfindən "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilmişdir. Kiçik çavuş rütbəsi ilə hərbi xidmətinə davam etmişdir.

Tural Ağcabəyov 2022-ci ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi təxribat nəticəsində baş verən döyüşlərdə də iştirak etmiş, düşmən təxribatının qarşısını alarkən yaralanmışdır. Sağaldıqdan sonra hərbi xidmətini davam etdirmişdir.

Tural Ağcabəyov 19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan erməni separatçılarına qarşı rəşadətli Azərbaycan Ordusu tərəfindən başlanan lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Ağdərə istiqamətində gedən döyüşlərdə böyük şücaət və igidlik nümayiş etdirmişdir. Kiçik çavuş Tural Ağcabəyov 20 sentyabr 2023-cü ildə Ağdərə istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Şəhidimiz ailəli idi, iki oğlu, bir qızı yadigar qaldı. Qəhrəmanımızın nəşi doğulduğu Xaçmaz rayonunun Manafoba kəndində torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Tural Ağcabəyov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## ALIYEV FƏRİD TOFİQ OĞLU



Şəhid əsgər Fərid Tofiq oğlu Alıyev 12 mart 2005-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. Fərid Alıyev Şamaxı şəhər 10 nömrəli tam orta məktəbində orta təhsilini aldıqdan sonra 2023-cü ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətə çağırılmışdır. Çağırışa əsasən, Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, «N» saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət qulluqçusu olmuşdur.

Fərid Alıyev 19 sentyabr 2023-cü ildə Qarabağda təxribatçı və separatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Şuşa istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərmişdir. Əsgər Fərid Alıyev 19 sentyabr 2023-cü ildə Şuşa istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi Şamaxı Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Onu da qeyd etmək lazımdır ki, şəhidimizin əmisi Əliyev Elman Əfqan oğlu da şəhidimiz kimi 18 yaşında, 1992-ci ildə Birinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Fərid Alıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

## ARZULLAYEV MURAD TƏVƏKKÜL OĞLU



Şəhid əsgər Murad Təvəkkül oğlu Arzullayev 21 fevral 1998-ci ildə Bakı şəhərində anadan olmuşdur. Abşeron rayonu, Xırdalan şəhəri sakini idi. Orta təhsilini Abşeron rayon Xırdalan şəhər 3 saylı tam orta məktəbdə almışdır. 2019-cu ildə ADMİU nəzdində Humanitar Kollecin Kulturologiya şöbəsində sığorta işi ixtisası üzrə təhsil almışdır. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən hərbi xidmətə çağırılan Murad çağırışa əsasən Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, Quru Qoşunlarının Komando Briqadasında, «N» saylı hərbi hissəsində hərbi xidmət etmişdir.

Murad Arzullayev 19 sentyabr 2023-cü ildə Qarabağda silahlanan erməni separatçılarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Döyüşlərdə böyük igidlik nümayiş etdirmiş və fərqlənmişdir. Əsgər Murad Arzullayev 19 sentyabr 2023-cü ildə Ağdərə istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhid olduğu zaman hərbi xidmətini tamamlamasına 12 gün qalmışdı. Qəhrəmanımızın nəşi İkinci Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Murad Arzullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

***SEVİNDİK NƏSİBOĞLU,***
***11-ci sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***

***(İstifadə edilmiş mənbələr: president.az; seferberlik.gov.az; unudulmazlar.az; memorial.az)***